әdalәt.- 2022.- 16 iyul.- S.5.

# Şәhid Mәmmәdhәsәn Sadıqlıya hәsr olunmuş poema - "Dağlar qartalı"

**Xalqımızın 2020-ci ildә 44 günlük Vәtәn müharibәsindә qazandığı şanlı qәlәbә, әlbәttә, yüzlәrlә igid övladımızın qәhrәmanlığı, hәtta şәhadәti sayәsindә mümkün olmuşdur. Vәtәn müharibәsi Azәrbaycanın igid vә qәhrәman oğlanlarının şücaәti ilә dünya tarixinә yeni bir sәhifә yazdı: o sәhifәni ki, Azәrbaycan әsgәri 30 ilin әn ağır hәrbi maneә vә әngәllәrini mәharәtlә, әzmlә aşaraq düşmәnә vurduğu sarsıdıcı zәrbә ilә böyük qәlәbәni әldә etdi. Azәrbaycanın Vәtәn müharibәsindә qazandığı qәlәbәsi dәrin ağlın, mәharәtli diplomatiyanın, uzaqgörәn siyasәtin, әzm, şücaәt vә qәhrәmanlığın vә әlbәttә ki, xalqla ordu, xalqla lider birliyinin vә qardaş hәmrәyliyinin nәticәsi idi. Bu qәlәbәnin bilavasitә sәbәbkarı Müzәffәr Ali Baş Komandan İlham Әliyev vә Müzәffәr Azәrbaycan Ordusu idi. Bu qәlәbәnin әldә olunmasında Azәrbaycanın bütün bölgәlәrindәn olan qәhrәman övladlarımız canları, qanları ilә әzmkarlıq göstәrmiş, qәhrәmanlıq nümayiş etdirmişlәr. Bu şanlı döyüşlәrdә Naxçıvanımızdan olan qәhrәman, igid oğlanlar da iştirak etmәklә Vәtәn tarixinә silinmәz izlәr, qәhrәmanlıq dolu sәhifәlәr yazmışlar. Bu qәhrәmanlarımızdan biri dә Sәdәrәk rayonunun Dәmirçi kәndindәn olan Mәmmәdhәsәn Sadıqlı olmuşdur.**




Bu qәhrәmanlarımız haqqında әdәbiyyat adamları qәhrәmanlıq vә ağı dolu әsәrlәr yazır, onların igidliyindәn bәhs edir, gәlәcәk nәsillәrә yadigar qoyurlar. Qәhrәmanlarımızın şәrәfinә hәlә dә әn gözәl әsәrlәr yazılır vә yazılacaqdır da. Onların qәhrәmanlığı elә şan vә şәrәfә malikdir ki, nә qәdәr yazsan, desәn, azdır ki, azdır. Tәkcә ona görә yox ki, bu vәtәn övladları canları ilә, qanları ilә döyüşüblәr, xalqımıza qәlәbә qazandırıblar. Hәm dә ona görә ki, onların hәr biri bizim özümüzdür vә onlar Vәtәn naminә göz qırpmadan sәrhәd dirәyi oldular, ürәklәri ilә tank әvәzi, top әvәzi döyüşüblәr. Bizim naminә, Vәtәn naminә hәyatlarından keçiblәr. Onlar hәyatlarından keçib tәki Vәtәn yaşasın!.. Onlar canlarından keçib, tәki Vәtәn var olsun, torpaqlarımız qorunsuz, әrazilәrimiz işğaldan azad olunsun!.. Onlar hәyatlarından keçdi, amma qalanlara hәyat verdilәr, şan verdilәr, xalqımıza, Vәtәnimizә ucalıq, qürur, mәğrurluq qazandırdılar. Azәrbaycan övladları hәr meydanda özlәrini şәrәfli döyüşçü vә qalib olaraq tәsdiq etdilәr. Mәmmәdhәsәn Sadıqlı da mәhz hәmin şәrәfli döyüş yoluna malik qәhrәmanlarımızdan biridir ki, şair Almәmmәd Eldaroğlu ona poema - qәhrәmannamә hәsr edib. Şәhidimizin kәndindәn olan şair Almәmmәd Eldaroğlu "Dağlar qartalı" adlı poemasını mәhz bu qәhrәman vәtәn övladımız olan Mәmmәdhәsәn Sadıqlının әziz xatirәsinә ithaf etmişdir.

"Dağlar qartalı" poeması 44 günlük Vәtәn müharibәsinin şәhidlәrindәn olan Mәmmәdhәsәn Sadıqlının hәyat vә döyüş yolundan bәhs edir. Poemanın epiqrafı hesab oluna bilәn "Vәtәn harayı" başlığı altında müәllif yazır: "44 günlük Vәtәn müharibәsi xalqımızın tarixinә qızıl hәrflәrlә yazıldı. Bu hәrflәr şәhid qanı idi". Bu mәnada bu әsәrdә qanını işğal olunmuş müqәddәs torpaqlarımızın azadlığı yolunda "uf" demәdәn axıdan yüzlәrlә igid, qәhrәman övladlarımızdan biri kimi Sәdәrәk rayonunun Dәmirçi kәndindәn olan Mәmmәdhәsәn Sadıqlının qәhrәmanlıq dolu obrazı yaradılıb, hәyatı vә döyüş yolu yüksәk poetik mәharәtlә әks etdirilib. Poemanın "Proloq", "Vәtәn oğlu, zamandı gәl", "Vәtәn keşiyindә dağlar qartalı", "Hәmrәylik nәğmәsi", "Dәmirçi", "Şәhadәtә çatan şәhid", "Baharı payız olan ana", "Dağlar qartalı", "Uğur sizin uğurdur", "Demişdin gәlәcәm, gәl, Mәmmәdhәsәn", "Necә unudum sәni?", "Ruhun sәsi", "Uğur", "Vәtәn oğlu", "Ozan sәsi", "Biz bundan sonra hәmişә müzәffәr xalq vә qalib dövlәt kimi yaşayacağıq", "Dağlar" vә "Epiloq" kimi bölmәlәrindә şәhid Mәmmәdhәsәn Sadıqlının hәyat vә ömür yolunun, qәhrәmanlıqlarla dolu döyüş yolunun müxtәlif sәhifәlәri әks olunub.

Poemanın bәdii girişindә şair torpaqları xain qonşular tәrәfindәn işğal edilmiş bir Azәrbaycan övladının 30 illik döyüş arzusunu ifadә etmişdir:

*Başsız atlıların bu qurd yuvası,*
*Boşboğaz danışıb qatır savaşı.*
*Allahdan çalına "Cәngi" havası,*
*İşlәyә yumruğum, bilәyim mәnim.*

*Әlәnәk torpağa, yağış, doluyla,*
*Vәtәnә yol açaq Vәtәn yoluyla.*
*Qovuşaq Xәzәrә Araz qoluyla*
*Sevinsin qoy ana Vәtәnim mәnim.*

Şairin Mәmmәdhәsәn Sadıqlının dilindәn verdiyi bu arzu yüzlәrlә Azәrbaycan igidinin arzusu kimi ümumilәşmişdir. Bu arzuda torpaq harayı var, qeyrәt fәryadı var, azadlıq üsyanı var - işğal olunmuş müqәddәs torpaqlarımızın azad olmaq arzusunu ifadә edәn qeyrәtli Azәrbaycan övladlarının döyüş arzuları, qeyrәt fәryadı!

Sonrakı bölmәlәrdә şәhid Mәmmәdhәsәn Sadıqlının döyüş yolu, hәyatından parçalar, şәhadәti vә s. әks edilmişdir. Vәtәn çağırışından sonra vәtәn torpaqlarının işğaldan azad edilmәsi istiqamәtindә döyüşlәrә qatılan Mәmmәdhәsәnin "dağlar qartalı" kimi qәhrәmancasına keçdiyi döyüş yolu, göstәrdiyi qәhrәmanlıq vә şücaәt poetik ustalıqla tәsvir edilmşdir. Şairin şәhid Mәmmәdhәsәnә hәsr etdiyi alqış dolu misrlar isә bir qәhrәmanlıq öygüsü tәsiri bağışlayır:

*Dağda sәs saldı*
*qiyyә vurmağı,*
*Yalçın qayalarda*
*mәğrur durmağı.*
*Qartaltәk şığıyıb*
*vurub-yıxmağı,*
*İldırım, şimşәkdi*
*hәr işdәn halı,*
*Hәr kәsi mat etdi*
*Dağlar Qartalı.*

*Әhsәn, sәndә olan*
*yurd sevgisinә,*
*Oylağı sevmәkdә*
*qurd sevgisinә.*
*Zәfәr sevgisinә,*
*Uğur eşqinә,*
*Vәtәn harayında*
*yardan aralı,*
*Hәr kәsi mat etdi*
*Dağlar Qartalı.*

Poemanın bölmәlәrindәn biri Qarabağa - Şuşaya qayıdışın xoşbәxtlik vә zәfәr duyğularını ifadә edir. Azәrbaycan Respublikasının Prezidenti, Müzәffәr Ali Baş Komandan İlham Әliyevin Şuşanın alınmasından sonra Ulu Öndәr Heydәr Әliyevin mәzarı üzәrinә gedәrәk Azәrbaycan xalqına sәslәnişinin notları üzәrindә bu bölmәni yazan müәllif bu kәlmәlәri hәr şәhidin, hәr qazinin sәslәndirdiyi "Qәlәbә marşı"nın sözlәri kimi tәqdim etmişdir:

*Salam! Әziz Şuşa,*
*biz qayıtmışıq.*
*Bu gәlәn ordunun*
*sәsi, ünüdür.*
*Üçrәngli bayrağı*
*uca sancmışıq,*
*9-u noyabr*
*Zәfәr Günüdür!*

**Belәliklә, poema Azәrbaycanın Vәtәn müharibәsi qәhrәmanlarından biri olan şәhid Mәmmәdhәsәn Sadıqlının әziz xatirәsinә hәsr edilmәklә hәm dә bütövlükdә vәtәn övladlarının әziz xatirәsi yad olunmuş, bir qәhrәmanın timsalında bütün igid övladlarımızın qәhrәmanlıq vә şücaәt dolu döyüş yolları poetik istedad vә ustalıqla ümumilәşdirilmiş, obrazlaşdırılmışdır. Bu poema şәhid Mәmmәdhәsәn Sadıqlıya hәsr edilsә dә, onun timsalında bütün qәhrәmanlarımızın qәhrәmanlıq dolu hәyatını özündә әks etdirmişdir. Bu poema bütün vәtәn oğullarının şәrәfinә yazılmış әn qiymәtli әsәrlәrdәn - qәhrәmannamәlәrdәn biridir. Ümid edir vә inanırıq ki, Almәmmәd Eldaroğlunun kitabları oxucularına qiymәtli töhfә olmaqla bәrabәr Naxçıvan әdәbi mühitinin zәnginlәşmәsindә dә mühüm rol oynayacaqdır.**

**Ramiz QASIMOV,**
**AMEA Naxçıvan Bölmәsinin әmәkdaşı, filologiya üzrә fәlsәfә doktoru, dosent**